Ədəbiyyat QƏZETİ

# Təsadüfi görüşün unudulmazlığı

2014-cü ilin noyabrında Elnarə Akimovanın "Ədəbiyyat qəzeti"ndə çap etdirdiyi "Mən şeirəm özüm..." adlı məqaləsi mənə bu yazını yazmağa stimul verdi.

1970-ci ilin gözəl bahar günlərindən biri idi. Elektrik qatarı ilə Buzovna istiqamətində gedirdim. Qatara yenicə əyləşmişdim. Etiraf edim ki, mən hansısa nəqliyyat vasitəsi ilə uzaq yol gedərkən fikirləşməyi çox xoşlayıram. Adətim üzrə özümə yenə də münasib bir yer seçib əyləşdim. Gözlərimi vaqonun pəncərəsindən bayıra zilləyərək düşüncələrə dalmaq istəyirdim. Elə bu zaman vaqonun orta hissəsindəki üzbəüz oturacaqlarda, məndən sağ tərəfdə oturan beş-altı qadın diqqətimi cəlb etdi. Qadınların diqqəti onlarla bərabər oturmuş təxminən 60-65 yaşlarında olan əsmər bənizli bir qadında idi. O saat bilinirdi ki, yaşlı qadın kimdirsə adi adam deyil. Ona suallar verir, böyük bir maraqla verdiyi cavablara qulaq asırdılar. Qadınlar tez-tez "Cəfər müəllim" adını hallandırırdılar. "Cəfər müəllimin evdə xasiyyəti necə idi?" "Bu az ömründə bu qədər işləri necə görə bilmişdi?" və s. suallara qadın təmkinlə cavab verir, tez-tez qəhərlənirdi. Necə oldusa, xanımlardan biri yaşlı qadına adı ilə, "Sona xanım" - deyə müraciət etdi. Elə bil yuxudan ayıldım. Bayaqdan adı çəkilənin C.Cabbarlı, qadının isə onun həyat yoldaşı Sona xanım olduğunu başa düşdüm. Pəncərə qarşısında oturub xəyallara dalmaq tamam yadımdan çıxdı. On doqquz yaşlı gənc üçün o dövrdə şəklini kitablarda gördüyü böyük bir yazıçının həyat yoldaşını canlı şəkildə görmək adi hadisə deyildi. Bütün diqqətimi toplayıb qadınların söhbətinə qulaq asırdım. Bu söhbətlərdən çoxunu qəzet və jurnallardan, kitablardan oxumuşdum. Mənim üçün yeni olan isə Sona xanımın C. Cabbarlının doğum tarixi ilə bağlı dedikləri oldu. Sona xanım suallardan birinə cavab verərkən onun doğum tarixinin 1899-cu il yox, 1896-cı il olduğunu qeyd etdi. Onun dediyinə görə, Cəfərin yaşı onu məktəbə qoyarkən böyük qardaşı Hüseynqulu tərəfindən kiçildilibmiş.



Ötən əsrin 70-ci illərinədək mən C.Cabbarlının demək olar ki, o vaxt üzdə olan bütün bədii əsərlərini, S. Dağlının ona həsr olunmuş "Bahar oğlu" romanını, eləcə də yazıçı haqda xeyli xatirə yazılar oxumuşdum. Heç vaxt onun doğum tarixi ilə bağlı belə bir fərqli rəqəmə rast gəlməmişdim. Odur ki, mənə çox qəribə gəlirdi. Doğrudanmı, belə bir məşhur şəxsiyyətin doğum tarixi ilə bağlı bu qədər qeyri-dəqiqlik ola bilərdi? Əlbəttə, əgər o zaman eşitdiklərim həqiqət idisə. Çox güman ki, C.Cabbarlının doğum tarixi ilə bağlı dediklərin Sona xanım səhv etmirdi. Çünki o, Cəfərin yaxın qohumu - doğmaca əmisi qızı idi və onu evlilik zamanına qədər də tanıyırdı.

Digər tərəfdən ədibin ilk dram əsəri olan "Vəfalı Səriyyə"ni on üç yaşda yazması da qətiyyən inandırıcı görünmür. 1912-ci ildə yazılmış bu əsər kifayət qədər ciddi bir əsərdir. Onun adi bir kömürçü ailəsində doğulduğunu, on üç yaşlı uşağın kifayət qədər təhsilinin və həyat təcrübəsinin olmadığını, hələ məktəbə də bir qədər gec getdiyini nəzərə alsaq, şübhələrimizin əsaslı olduğu qənaətinə gələrik.

Bu gün az ömründə xariqələr yaratmış böyük ədibin haqqında müasir gənclik nə bilir? Bu barədə düşünəndə ürəyimdə bir nisgil baş qaldırır. Televiziya verilişlərinin birində tanınmış bir müğənniyə C.Cabbarlının şəklini göstərib kimliyini soruşdular, tanımadı...

**Rahil MƏMMƏD**
*Sabirabad*